# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 398** **Bakı şəhəri, 16 oktyabr 2020-ci il**

**"Ödənişsiz psixoloji yardımın göstərilməsi Qaydası və Şərtləri"nin təsdiq edilməsi haqqında**

"Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 yanvar tarixli 482 nömrəli Fərmanının 1.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Ödənişsiz psixoloji yardımın göstərilməsi Qaydası və Şərtləri" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş Naziri***

Xalq qəzeti 2020.- 18 oktyabr.- S.9.